*Azərbaycan Respublikasının*
*Vəkillər Kollegiyası üzvlərinin*
*06.12.2022-ci il tarixli*
*Konfransının qərarı ilə təsdiq*
*edilmişdir*

# Azərbaycan Respublikası Vəkillər Kollegiyası İxtisas Komissiyasının ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

**1.1.** Bu Əsasnamə vəkilliyə namizədlərin nəzərdə tutulmuş tələblərə uyğunluğu və peşə hazırlığının müəyyən edilməsi üçün yaradılmış Azərbaycan Respublikası Vəkillər Kollegiyasının İxtisas Komissiyasının (bundan sonra mətn üzrə - *Komissiya*) fəaliyyətini tənzimləyir.

**1.2.** Bu Əsasnamə vəkilliyə namizədlərin imtahanını təşkil edən bütün iştirakçılar üçün məcburidir.

**1.3.** Bu Əsasnamə "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa və digər sahəvi normativ-hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğun olaraq hazırlanmışdır.

## 2. Komissiyanın üzvləri

**2.1.** Komissiyanın tərkibi "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq təşkil olunur.

**2.2.** Komissiyanın üzvləri beş ildən bir yenidən formalaşır.

**2.3.** Komissiyanın yeni tərkibi birinci iclasında sədri, sədr müavinini və katibi seçir.

**2.4.** Komissiyada işləməyə görə üzvlərə Rəyasət Heyəti tərəfindən müəyyən edilmiş qaydada və məbləğdə haqq ödənilə bilər.

**2.5.** Komissiyanın üzvləri aşağıdakılara borcludurlar:

**2.5.1.** Komissiyanın bütün iclaslarında iştirak etmək;

**2.5.2.** öz fəaliyyətlərində qanunçuluq, qərəzsizlik, obyektivlik, müstəqillik və peşəkarlıq prinsiplərini rəhbər tutmalı;

**2.5.3.** Komissiyanın işinin təşkili və onun fəaliyyəti ilə bağlı Komissiya sədrinin göstərişlərini yerinə yetirmək;

**2.5.4.** Komissiyanın iclaslarında qeydə alınmış səsvermə yolu ilə səs vermək. Komissiya üzvü səsvermədə bitərəf qala bilməz.

**2.6.** Komissiyanın üzvü Komissiyanın işi üçün zəruri olan bütün sənədlər və materiallarla tanış ola bilər.

## 3. Komissiyanın səlahiyyətləri

**3.1.** Komissiya vəkilliyə namizədlərin peşə yararlılığının müəyyən edilməsi məqsədilə Rəyasət Heyətinin müəyyən etdiyi qaydalara uyğun ixtisas imtahanı keçirir.

**3.2.** Komissiya namizədlərin ixtisas imtahanına buraxılışı məsələsini həll edir.

**3.3.** Komissiyanın iclası üzvlərinin üçdə iki hissəsi iştirak etdikdə səlahiyyətlidir və qərarlar iştirak edənlərin sadə səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledici hesab olunur.

**3.4.** Komissiyanın üzvləri Komissiyanın işi ilə əlaqədar onlara məlum olan məlumatla bağlı məxfiliyi saxlamağa borcludurlar.

**3.5.** Komissiyanın qəbul etdiyi qərarlar Komissiyanın sədri və katibi tərəfindən imzalanan protokolla rəsmiləşdirilir. Səsvermə zamanı Komissiyanın üzvünün iclasda iştirak edən üzvlərin səs çoxluğu ilə qəbul edilmiş qərardan fərqli rəyi olarsa, bu rəy yazılı formada təqdim edilir və iclas protokoluna əlavə edilir.

**3.6.** Komissiya vəkilliyə namizədlərin peşə yararlılığını müəyyən etdikdə, Rəyasət Heyətinə müvafiq rəy təqdim edir.

**3.7.** Komissiya zəruri hallarda baxılan məsələlər üzrə dövlət orqanlarından, digər hüquqi və fiziki şəxslərdən müvafiq sənədlər və məlumatlar tələb edir.

**3.8.** Komissiya tərəfindən peşə yararlılığı müəyyən edilmədiyindən Rəyasət Heyətinə müvafiq rəy təqdim edilməmiş namizədlərin şəxsi işləri 3 (üç) il müddətində saxlanılır.

**4. Komissiyanın sədri**

**4.1.** Komissiyanın sədri Komissiyanın üzvləri olan vəkillər sırasından 5 il müddətinə seçilir.

**4.2.** Komissiyanın sədri aşağıdakı səlahiyyətlərə malikdir:

**4.2.1.** Komissiyanın işini təşkil edir;

**4.2.2.** Komissiyanın iclaslarının gündəliyini formalaşdırır, onun iclaslarını çağırır və keçirir;

**4.2.3.** Komissiyanın iclaslarının protokollarını və Komissiyanın işini əks etdirən digər sənədləri imzalayır;

**4.2.4.** İxtisas imtahanında iştirak etmək istəyən namizədlərin sənədlərinin yoxlanılmasını və iclasa təqdim edilməsini təmin edir;

**4.2.5.** Komissiyanın üzvlərinə onun fəaliyyəti ilə bağlı məsələlər üzrə göstərişlər verir;

**4.2.6.** Komissiyanın işinin nəticələrinin ümumiləşdirilməsini təşkil edir və onun fəaliyyətinin təşkilinin təkmilləşdirilməsi üçün tədbirlər görür;

**4.2.7.** İxtisas imtahanının keçirilməsinin maddi-texniki təchizatı və maliyyələşdirilməsi üzrə təklifləri hazırlayır və Rəyasət Heyətinə təqdim edir;

**4.2.8.** İxtisas imtahanlarının keçirilməsinin informasiya təminatını təşkil edir və həyata keçirir;

**4.2.9.** Arxivdən məlumatların verilməsinə göstəriş verir;

**4.2.10.** Üçüncü şəxslərlə münasibətlərdə Komissiyanı təmsil edir;

**4.2.11.** Bu Əsasnamədən və müvafiq normativ-hüquqi aktlardan irəli gələn digər səlahiyyətləri yerinə yetirir.

**4.3**. Komissiyanın sədri olmadığı dövrdə Komissiyaya sədrliyi sədr müavini həyata keçirir.

**5. Komissiyanın katibi**

**5.1.** Komissiyanın katibi Komissiyanın üzvü olmayan Rəyasət Heyəti aparatının ali hüquq təhsili olan işçisi seçilir.

**5.2.** Komissiyanın katibinin vəzifələrinə aşağıdakılar aiddir:

**5.2.1.** Komissiyanın iclasına çıxarılacaq məsələlər üzrə iclasın gündəliyini hazırlayır;

**5.2.2.** Komissiyanın iclasının protokolunu aparır və imzalayır;

**5.2.3.** Komissiyanın iclasının keçirilməsi tarixi, yeri və gündəliyi barədə üzvləri iclasın başlanmasına ən azı 3 (üç) gün qalmış məlumatlandırır;

**5.2.4.** Komissiyanın iclasına dəvət olunmuş şəxslərin məlumatlandırılmasını təmin edir;

**5.2.5.** Komissiyanın fəaliyyətinə dair sənədləşmə işlərini aparır, arxiv işini təmin edir.

**5.3.** Komissiyanın katibinə Komissiyanın fəaliyyətinin təmin edilməsi ilə bağlı bu Əsasnamədən və müvafiq normativ-hüquqi aktlardan irəli gələn digər vəzifələr həvalə edilə bilər.

**5.4.** Katib olmadıqda onun vəzifələrini Komissiya üzvlərindən biri yerinə yetirir.